UOT 159.9

***Pərvin Zakir qızı Əliyeva***
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# YENİYETMƏLƏRDƏ MİLLİ XARAKTERİN FORMALAŞDIRILMASININ ETNOPSİXOLOJİ ƏSASLARI

***Парвин Закир гызы Алиева***
*докторант по программе доктора философии*
*Азербайджанский Государственный Педагогический Университет*

# ЭТНОПСИХОЛОГИЧЕСКИЕ ОСНОВЫ ФОРМИРОВАНИЯ НАЦИОНАЛЬНОГО ХАРАКТЕРА У ПОДРОСТКОВ

***Parvin Zakir Alieva***
*doctoral student in the programm of a Ph.D*
*Azerbaijan State Pedagogical University*

# ETHNOPSYCHOLOGİCAL FOUNDATİONS OF THE FORMATİON OF A NATİONAL CHARACTER İN ADOLESCENTS

**Xülasə:** Milli xarakter ictimai mühitdə formalaşır, möhkəmlənir və dövrlə əlaqədar yeni-yeni keyfiyyətlər əldə edir. Milli xarakterin genetik ötürülməsi millətin gələcəyi üçün çox böyük əhəmiyyət kəsb edir. Bir sıra xalqlar müxtəlif etnik qruplardan təşkil olunurlar. Qarşılıqlı təsir nəticəsində onların mədəniyyəti inkişaf etdiyi kimi psixologiyaları da formalaşmağa, yeni-yeni xüsusiyyətlər kəsb etməyə başlayır. Buna misal olaraq Azərbaycan xalqını göstərə bilərik. Azərbaycan xalqı Azərbaycan ərazisində yaşayan bütün etnosların tarixi yolunun vəhdətini əks etdirən qaynar qazan kimi formalaşmışdır. Bu etnoslar birlikdə uzun bir xarakter yaşamışlar və bir-birlərinin etnik xüsusiyyətlərinə ciddi təsir göstərmişlər. Eyni zamanda etnik qruplar xalq halında yaşadıqda onlarda milli özünüdərk, milli xarakter və milli mənlik şüuru yüksək səviyyədə olur.
***Açar sözləri:*** *milli xarakter, milli özünüdərk, milli şüur, milli ideologiya, millət*

**Резюме:** Национальный характер формируется, укрепляется и приобретает новые качества согласно эпохе. Генетическая трансформация национального характера имеет большое значение для будущего нации. Сюда относится некоторые народы и ряд этнических групп. В результате их взаимного влияния развивается их психология и создаются новые функции. Например, примером может послужить азербайджанский народ. Азербайджанский народ сформировался как кипящий горшок, который отражает единство исторического пути всех этнических групп, проживающих на территории Азербайджана. Эти этносы долгое время жили вместе и оказали серьезное влияние на этническую принадлежность друг друга. В то же время, когда этнические группы живут в форме народности их, национальный характер и национальное самосознание находятся на высоком уровне.
***Ключевые слова:*** *национальный характер, национальное самосознание, национальное сознание, национальная идеология, нация*

**Summary:** The national character is shaped, strengthened, and gains new qualities in the era. The genetic transformation of the national character is of great importance for the future of the nation. A number of ethnicities are from different ethnic groups are organized. As a result of their mutual influence, their psychology develops and new features are created. For example, we can show the Azerbaijani people. The Azerbaijani people have been shaped as a boiling pot that reflects the unity of the historical path of all ethnic groups living in the territory of Azerbaijan. These ethnos have long lived together and have had a serious

impact on each other's ethnicity. At the same time, when ethnic groups live in a nation, national self-conscious, national character and national consciousness are at a high level.

***Key words:*** *national character, national self-awareness, national consciousness, national ideology, nation*

Şəxsiyyət üçün tipik davranış tərzini şərtləndirən, fəaliyyətdə və ünsiyyətdə əmələ gələn və təzahür edən davamlı fərdi xüsusiyyətlərin məcmusuna xarakter deyilir. Xarakerin özünəməxsus əlamətləri var ki, onlar aşağıdakı kimi təsnif olunur:

1. Kollektivə və başqa adamlara münasibəti ifadə edən xarakter əlamətləri: kollektivçilik, doğruçuluq, kobudluq, qayğıkeşlik, tələbkarlıq və s.

2. Əməyə münasibəti ifadə edən xarakter əlamətləri: əməksevərlik, tənbəllik, məsuliyyətlilik və s.

3. İnsanın özünə münasibətini ifadə edən xarakter əlamətləri: təvazökarlıq, lovğalıq, şöhrətpərəstlik və s.

4. Əşyalara münasibəti ifadə edən xarakter əlamətləri: səliqəlilik, pintilik, qayğıkeşlik və s.

Xarakterin bu əlamətləri bütün insanlara xasdır. Lakin ayrı-ayrı xalqların nümayəndələrində bu xarakter əlamətləri etnosun adət-ənənələrinə, dəyərlər sisteminə, əxlaqına, bütün xalq tərəfindən bəyənilmiş, qəbul edilmiş davranış və etnik qaydalara, habelə yaşadığı quruluşun dövlət maraqlarına və digər etnik köklərə görə müxtəlif etnopsixoloji çalarlara malik olur ki, bunu milli xarakter kimi ifadə etmək olar. Yəni insanların yaşadığı mühit, yaşayış şəraiti, onların siyasi cəhətdən mövqeyi, hansı tarixi-siyasi dövr keçmələri onların xarakterinə bilavasitə təsir edir və onlarda ümumi etnik xarakter formalaşdırır. "Etnik xarakter əlamətləri müəyyən etnik ümumilik üzvlərinin davranış və rəftarında, hərəkətlərində üzə çıxır və bu etnik ümumiliyin həyat tərzinin ictimai-iqtisadi, siyasi inkişafının xüsusiyyətlərini əks etdirir" (1, s. 104). Bütün bunların təsiri ilə formalaşmış xalqın, millətin özünəməxsus xüsusiyyətləri, milli xarakteri arxetiplər şəklində kodlaşdırılaraq genetik və ictimai ötürülmə yolu ilə nəsildən-nəslə ötürülür.

Milli xarakterin genetik ötürülməsi millətin gələcəyi üçün çox böyük əhəmiyyət kəsb edir. İnsanların genetik yaddaşı istənilən mühitdə, şəraitdə onların milli xarakter əlamətlərinin üzə çıxmasına şərait yaradır. Lakin genetik yaddaşın üzə çıxmasına uzun müddət lazımi şərait olmadıqda milli xarakterdə müəyyən dəyişikliklər baş verir. Milli xarakter millətin varlığını, özünəməxsusluğunu şərtləndirən əsas cəhətlərdən biridir. Hər bir millətin dili kimi xarakteri də onu yaşadan əsas amildir. Milli xarakter ictimai mühitdə formalaşır, möhkəmlənir və dövrlə əlaqədar yeni-yeni keyfiyyətlər əldə edir.

Nəsillər ardıcıl olaraq öz ulu babalarını təkrarlayır, hər cəhətdən qanlarını daşıdıqları əcdadlarına oxşayırlar. Sanki hansısa gözəgörünməz qüvvə eyni millətdən olan insanları millətə xas xarakter əlamətlərinə uyğun davranmağa vadar edir. Baxmayaraq ki, bir neçə millət eyni ölkədə, eyni şərtlər altında yaşayırlar, onlar öz xarakterlərinə görə bir-birlərindən ciddi şəkildə fərqlənirlər. Milli xarakter dedikdə ayrıca bir fərdə, şəxsə aid olan xüsusiyyətlər deyil, etnosun hər bir üzvünün davranış və rəftarında, münasibətlər sistemində təcəssüm edən psixoloji xüsusiyyətlər nəzərdə tutulur. Bu özünü onların hər bir davranışında aydın büruzə verir. Biz xalqın özünəməxsus xüsusiyyətlərini öyrənmək, tədqiq etmək istəsək xalqın etnik başlanğıcını, onun şifahi və yazılı tarixi və bədii abidələrinə və milli xarakterin necə formalaşdığını, onun ayrı-ayrı xalqlarda məxsusi xarakter daşımasını anlamaq üçün ümumən insan tarixinə, onun tarixən aldığı şəkillərə, yaratdığı birliklərə, quruluşlara nəzər salmağımızda fayda var.

Yeniyetmələrdə milli xarakterin formalaşması xüsusiyyətlərini tədqiq edərkən xalqımıza xas olan xarakter əlamətlərinin tarixən inkişafına qısa da olsa nəzər salmaq, zənnimizcə, pis olmaz.

Azərbaycanın yerləşdiyi ərazi əlverişli coğrafi zona olduğu üçün tarix boyu hücumlara məruz qalmışdır və bura müxtəlif etnoslar axın etmiş və burada məskunlaşmışdır. Və bu etnoslar zamanla yerli xalqla qaynayıb qarışmış, onlarda ümumi xüsusiyyətlər formalaşmışdır. Azərbaycan xalqının tarixində baş verən ilk ən böyük hadisələrdən biri ərəblərin işğalı ilə bağlıdır. Həm işğalla, həm də dinin təsiri ilə milli xarakterdə yeni əlamətlər formalaşmışdır. Gözəl islam əxlaqı ilə mövcud etnik xarakter birləşərək Azərbaycan milli xarakterinin formalaşması

yolunda həlledici rol oynamışdır və milli xarakteri daha da zənginləşmişdir. Bu dövrdə milli xarakterin formalaşması demək olar ki, başa çatır. Bu dövrdə humanistlik, xeyirxahlıq, əliaçıqlıq kimi xarakter əlamətləri milli xarakterin əsas göstəriciləri kimi özünü büruzə verir.

Daha sonra isə rus işğalı milli xarakterdə öz izini qoydu. Ruslar xalqları itaətdə saxlamaq və vahid imperiya yaratmaq üçün ilk növbədə onların xarakterini sındırıb yeni xalq yaratmalı idilər. Birləşdirdiyi xalqlara vahid ideologiya yeridilir, etnik, milli fərqləri aradan qaldırmağa çalışırdılar. Rus işğalı zamanı etnik xarakterlər özünü aydın şəkildə büruzə verirdi. Xalqın igidləri son damla qanlarına kimi vətənləri uğrunda mübarizə apardılar. Xalqın xarakterini sındırmaq üçün ruslar hər yola əl atdılar, neçə-neçə igidlərimiz güllələndi, qaçaq düşdü və ya nəsilləri ilə bərabər sürgün edildilər. Ruslar xalqlarda qul psixologiyası yaratmağa çalışırdı.

Xarakterin əsas strukturu dəyişməzdir və buna görə də xalq tarixən həmişə öz birliyini qoruyub saxlaya bilir. Heç bir qüvvə hər hansı xalqa və ya etnosa onda olmayan xarakteri verə yaxud sahib olduğu xüsusiyyətləri əlindən ala bilməz. Q. Lebon deyir: “Eyni irqdən olan ayrı-ayrı fərdlərdə xalqın ruhunu ifadə edən mənəvi və intellektual xüsusiyyətlər onların üzünün cizgiləri kimi dəyişkən görünür. Lakin müşahidələr göstərir ki, bu irqdən olan fərdlərin əksəriyyəti həmişə növlərin təsnif olunduqları anatomik əlamətlər qədər davamlı, müəyyən sayda ümumi psixoloji xüsusiyyətlərə malikdirlər. Anatomik əlamətlər kimi bu psixoloji xüsusiyyətlər də dəyişməz halda və daimi sürətdə irsən keçir. Ümumi psixoloji xüsusiyyətlərin bu mexanizmini birmənalı şəkildə milli xarakter adlandırırlar ( 2, s. 61).

Hər bir millətin xarakter əlamətlərinin qorunub saxlanılmasında yeni nəslə aşılanmasında, onların milli ruhda böyüdülməsində bədii abidələrin böyük rolu var. Əvvəldə qeyd etdiyimiz kimi xarakter həyat, yaşayış tərzi ilə əlaqədar yaranır, formalaşır və insanların fəaliyyəti zamanı özünü büruzə verir. Bədii nümunələrin real həyatı obrazlı şəkildə ifadə etdiyini nəzərə alsaq deməli milli ədəbiyyatımız milli xüsusiyyətlərimizi özündə birləşdirən, milli xarakterimizin keçdiyi inkişaf yoluna, onun formalaşması xüsusiyyətlərinə nəzər salmaq üçün ən düzgün və zəngin mənbədir.

Ədəbi folklor nümunələri (layla, bayatı, nağıl, dastan) klassik poeziya (Nizami Gəncəvi, Məhəmməd Fizuli, İmadəddin Nəsimi, Mirzə Ələkbər Sabir və b.) və müasir ədəbiyyat yüzilliklər boyunca Azərbaycan tarixi coğrafiyalarında yaşayan insanların bədii-estetik düşüncəsi ilə yanaşı, ümumi etnik-milli dünyagörüş və xarakterinin formalaşmasında və inkişafında ən etibarlı mənbə rolunu oynamışdır. İlk milli xarakter əlamətlərinə şifahi ədəbiyyat nümunələrində rast gəlinir. Şifahi xalq ədəbiyyatı nümunələrini ayrı-ayrı insanlar deyil, bütövlükdə xalq yaratdığı üçün bu nümunələr xalqın milli xarakteri, adət-ənənələri, mərasimləri, ümumilikdə dünyagörüşü haqqında daha geniş məlumat ötürmək xüsusiyyətinə malikdir. Şifahi ədəbiyyat nümunələrində bir qayda olaraq əməksevərlik, düzgünlük, igidlik, mərdlik, vətənpərvərlik, qonaqpərvərlik kimi xarakter əlamətləri ön plana çəkilir, təriflənir, yalançılıq, tənbəllik, namərdlik və pis xarakter əlamətlərinin məğlubiyyəti xüsusi vurğulanır.

Şifahi xalq ədəbiyyatı nümunələrinin milli xarakterin formalaşmasında çox böyük rolu var və milli xarakterin gənc nəslə təbliğ olunmasında əsas vasitədir. Körpəyə ilk gözünü açdığı andan ona laylay deyilir, böyüdükcə isə nağıllar, rəvayətlərlə ətraf aləmin, cəmiyyətin, mənsub olduğu millətin qanunları, xüsusiyyətləri ilə tanış olur və milli xarakter əlamətləri tədricən yeni nəslin şüuraltına yeridilir. Şifahi ədə-biyyatda insanların bir-birinin xüsusiyyətlərinə bələd olmağa çalışmaq, insanlarla onların xarakter keyfiyyətlərinə əsasən davranmaq, xarakterə görə insanları ayırd etmək, mənfi xüsusiyyətlərdən çəkinmək kimi məsələlər öz əksini tapmışdır.

Ümumiyyətlə, şifahi yaradıcılıq milli ruhu aşılayır və milli ruh da insanın milli xarakter keyfiyyətlərinin özəyini təşkil edir. Azərbaycan milli xarakteri dastanlarımızda daha aydın şəkildə ifadə olunmuşdur. “Kitabi-Dədə Gorqud”, “Qaçaq Nəbi”, “Koroğlu” kimi dastanlarımızda Azərbaycan xalqının ən gözəl xarakter əlamətləri öz əksini tapıb. Burada qəhrəmanlarımız igid, cəsur, vətənpərvər, vətən – namus uğrunda heç tərəddüd etmədən canlarından keçən mərd, səxavətli, qonaqsevər, sözübütöv təsvir olunurlar. Bu dastanların qəhrəmanları bütövlükdə xalqın

simasıdır və xalqın xarakter əlamətlərini dərin cizgiləri ilə əks etdirir. “Dədə Qorqud dastanları Azərbaycan xalqının tarixi salnaməsi olmaqla yanaşı həm də bu xalqın bədii dühasının məhsuludur. Odur ki, dastanlar Azərbaycan xalqının etnik xarakterini daha çox canlı şəkildə əks etdirir” (3, s. 108). Dastanda qadınların xarakter əlamətləri demək olar ki, kişilərin xüsusiyyətləri ilə eynidir. Qadınlar da igid, namuslu, qonaqsevər, səxavətli, dözümlü təsvir olunurlar. Azərbaycan xalqının əcdadları olan oğuzların etnik psixoloji xüsusiyyətləri əsasən qonaqpərvərlikdə, əliaçıqlıqda, sədaqətdə, igidlikdə, dözümdə, inadkarlıqda, qorxmazlıqda, çalışqanlıqda və s. təzahür edir.

Nədənsə son zamanlar milli zəmində yazılan əsərlər mənfi xarakter əlamətlərini üzə çıxarır. Halbuki biz xalqa məxsus müsbət xarakter əlamətlərini dönə-dönə qeyd etməli, yeni nəslə onları aşılamaq və öz milliyyətlərini onlara sevdirməliyik. Çox təəssüf ki, yeni nəsil xarici ədəbiyyata daha meyillidir və istər-istəməz onların xarakterində başqa mədəniyyətlərə xas keyfiyyətlər yaranır, başqa millətlərin xüsusiyyətlərini daha çox xoşlayırlar. Başqa mədəniyyətlərin uzun müddətli təsirindən sonra insanlar öz mədəniyyətlərini bəyənmirlər. Milli xüsusiyyətlərinin bir qismindən imtina edir və onları lazımsız hesab edir. Halbuki insan sahib olduğu insanları bütün mənfi və müsbət cəhətləri ilə sevdiyi və qəbul etdiyi kimi, sahib olduğu milliyyətini də elə sevməlidir.

**Məqalənin aktuallığı.** Hər bir xalqın özünəməxsus milli xarakteri, adət-ənənələri, dəyərləri var. Yeniyetmələrdə milli xarakterin formalaşdırılmasında bu kimi milli sərvətlərin əhəmiyyətli rolunun nəzərə alınaraq daha geniş araşdırılmasını məqalənin aktuallığı hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Milli kimliyimizi, aid olduğumuz etnosun psixoloji xüsusiyyətlərini bilməyimiz çox vacibdir. Keçmişini bilməyən xalqın gələcəyi olmaz. Məqalənin elmi yeniliyi də bu amilə xüsusi diqqət yetirilməsindən ibarətdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəbinin müəllimləri, tələbə və magistrlər, eləcə də praktik psixoloqlar istifadə edə bilərlər. Məqalə “Yaş və pedaqoji psixologiya” kafedrasının 27 iyun 2018-ci il tarixli iclasında (protokol № 19) müzakirə edilmiş və çapı məsləhət görülmüşdür.

**Ədəbiyyat:**


1. Adler A. İnsan tanıma sanatı, çev. Ş. Başar, İstanbul, 1977.
2. Ağayev İ. Müasir şəraitdə Azərbaycanda milli etnik proseslər. Bakı, MBM, 2006.
3. Baxşəliyev Ə. Azərbaycan milli-mənəvi dəyərlərinin sosial-psixoloji mahiyyəti. Bakı: Elm və təhsil, 2011.
4. Carrel A. İnsan Denen Meçhul, çev. R.Özdek, İstanbul 1983


**E-mail**: pervin.eliyeva.1990@gmail.com

**Rəyçilər:** *psixol.ü.elm.dok., prof.* **Ə.T. Baxşəliyev**,
*psixol.ü.fəls.dok., dos.***Z.İ. Əliyeva**
**Redaksiyaya daxil olub:** 11.10.2018